

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 58 (23.945)

31 mart 2022-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 30-da Böyük Britaniyanın Silahlı Qüvvələr naziri, Böyük Britaniya parlamentinin üzvü Ceyms Hippini qəbul edib.

Görüşdə bu il Azərbaycanla Böyük Britaniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinin qeyd olunduğu məmnunluqla vurğulanıb və bu dövr ərzində ölkələrimiz arasında müxtəlif sahələrdə səmərəli əməkdaşlığın həyata keçirildiyi bildirilib. Qeyd olunub ki, 30 illik dövrdə uğurlu əməkdaşlığın həyata keçirilməsi əlaqələrimizin bundan sonra da genişlənməsi üçün yaxşı zəmin yaradır.

Görüşdə neft, qaz, Azərbaycan iqtisadiyyatına Böyük Britaniya tərəfindən sərmayə qoyuluşu, ticarət, nəqliyyat, müdafiə sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparılıb. Söhbət zamanı NATO-nun Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli dəstək" missiyasında Azərbaycanın iştirakı qeyd edilib.

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra bölgədə post-münaqişə dövründə gedən proseslər barədə danışıb.

## Dövlət Yol Polisi İdarəsinin fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilib




*Martın 30-da Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Dövlət Yol Polisi İdarəsinin fəaliyyəti və qarşıda duran vəzifələrlə bağlı tədbir keçirilib.*

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyində keçirilən tədbiri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov açıb.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, polkovnik Rəşad İsmayılov çıxış edərək bildirib ki, muxtar respublikada qurulmuş müasir avtomobil yollarında yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi qarşıda duran əsas vəzifələrdəndir. Qanunvericiliklə həmin vəzifələrin yerinə yetirilməsi Daxili İşlər Nazirliyinin dövlət yol polisi xidmətinin üzərinə qoyulmuşdur. Bunun üçün nazirliyin aid qurumlarında lazımi şərait yaradılmış, müasir texnoloji avadanlıqlar quraşdırılmış və xidməti nəqliyyat vasitələri ilə tam təmin olunmuşdur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2022-ci il fevralın 7-də Daxili İşlər Nazirliyində keçirilən müşavirədə yol hərəkəti və onun təhlükəsizliyinin təmin edilməsi ilə bağlı fəaliyyətə toxunaraq nazirliyin aid qurumu tərəfindən yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi üçün ciddi təhlillər aparılıb təkliflər verilməsi, bu sahədə aid orqanlarla qarşılıqlı əlaqəli işlənilməsi, hərəkəti nizamlayan texniki və elektron vasitələrin quraşdırılması, dəyişdirilməsi, ləğv edilməsi, təkmilləşdirilməsi üçün təşəbbüskarlığın artırılması, maarifləndirmə işinin gücləndirilməsi istiqamətində tapşırıqlar vermişdir. Bununla bağlı yol patrul xidməti inspektorunun vəzifə təlimatı yenidən hazırlanmış, əməkdaşların peşə hazırlığı səviyyəsinin yüksəldilməsi, qanunvericiliyin və normativ-hüquqi aktların tələblərinə əməl edilməsi istiqamətində nəzəri-praktik məşğələlər təşkil olunaraq təcrübəli əməkdaşlar tərəfindən tədris olunmuş, videoçarx nümayiş etdirilmişdir. Bundan sonra da əməkdaşların nəzəri və peşə biliklərinin artırılması diqqətdə saxlanılmalı, sahəvi qanunvericiliklər dərindən öyrənilməli və xidmət əməkdaşları fəaliyyətlərində rəhbər tutmalı, yol hərəkəti qaydalarına və hərəkət təhlükəsizliyinə riayət olunmasına ciddi nəzarət etməli, eləcə də qanunvericiliklə müəyyənləşdirilmiş səlahiyyətlər daxilində inzibati icraatın aparılması işi düzgün yerinə yetirilməlidir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov bildirib ki, yol-nəqliyyat hadisələrinin təhlili və qarşısının alınması mühüm əhəmiyyətə malikdir. Cari ilin fevralın 7-də nazirlikdə keçirilən müşavirədə Ali Məclisin Sədri yol polisi ilə bağlı da ciddi tapşırıqlar vermişdir. Onlardan biri də muxtar respublikada nəqliyyat vasitələrinin sayının artması ilə əlaqədar təhlükəsizlik tədbirlərinin görülməsinə diqqətin artırılmasıdır. İlk növbədə, maarifləndirmə, yol hərəkəti qaydalarının öyrədilməsi, izahı həyata keçirilməlidir. Həmçinin nəzərə alınmalıdır ki, muxtar respublikada nəqliyyat infrastrukturu, demək olar ki, tamamilə yenilənib. Ona görə də yollardan səmərəli istifadə, yolların çirkləndirilməməsi, dağıdılmaması üçün maarifləndirmə əsas şərtlərdəndir. Bunun üçün kütləvi informasiya vasitələrinin imkanlarından istifadə etməklə yanaşı, əmək kollektivlərində, kəndlərdə, məktəblərdə ictimai maarifləndirməyə ehtiyac vardır. Bundan əlavə, yol hərəkəti təhlükəsizliyi üçün real təhlükə olan hallarda, yerlərdə nəqliyyat vasitələrinin və piyadaların hərəkətinin təşkilində dəyişikliklər etməli, yol-nəqliyyat hadisələrinin səbəbləri, daha çox baş verdiyi ərazilər araşdırılmalı, nəzərə alınmalı, bu zaman hərəkəti nizamlayan texniki vasitələrin quraşdırılması, ləğv edilməsi, dəyişdirilməsi üçün təkliflər verilməlidir. Həmçinin Dövlət Yol Polisi İdarəsi aidiyyəti qurumlarla işini elə qurmalıdır ki, yol hərəkəti insan həyatı üçün təhlükə mənbəyi olmasın. Lakin sürücülərin verilməsi ilə bağlı imtahanlar obyektiv olmalı, sürücü hazırlığına peşəkar yanaşılmalı, minimum tələblərə cavab verməyən şəxslər yol hərəkəti iştirakçısına çevrilməməlidir. Bununla yanaşı, yol hərəkəti iştirakçılarının nəqliyyatdan istifadə mədəniyyətinin yüksəldilməsi üçün tədbirlər görülməlidir. Yollarda dayanma, durma qaydalarına riayət olunmasına, yolun hərəkət hissəsinin daim açıq qalması üçün birtərəfli parklanma vərdişlərinin yaradılmasına xüsusi diqqət yetirilməlidir. Nəqliyyat vasitələrində üçüncü şəxslər üçün diqqəti yayındıran əşya quraşdırılması, söz və ya təsvir yazılması hallarının, ümumilikdə isə nəqliyyat vasitələrində görüntünü məhdudlaşdıran qanunsuz pərdə, plyonka və digər vasitələrin qarşısı qətiyyətlə alınmalıdır. Eyni zamanda yol hərəkəti qaydalarını pozan şəxsə onun hərəkətlərinin qeyri-qanuni olması xeyirxahlıqla, inandırıcı şəkildə və aydın izah edilməlidir.

Sonra mövzu ətrafında çıxışlar dinlənilib, yol polisinin fəaliyyətindən bəhs edən filmə baxış olub.

**"Şərq qapısı"**

## STEAM kabinələrinə və "Texniki Servis Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə alınan avadanlıqların təqdimatı olub

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə keçirilən tədbiri giriş sözü ilə açan nazir Rəhman Məmmədov bildirib ki, STEAM təhsilinin əhəmiyyəti nəzərə alınaraq əhatə dairəsinin daha da genişləndirilməsi məqsədilə 2021-ci il 7 iyun tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalamışdır. Sərəncamın icrası ilə bağlı hazırda Təhsil Nazirliyinin tabeliyində STEAM Təlim-Tədris Mərkəzi yaradılıb.



Çıxışda ümumtəhsil məktəblərinin 325-dən çox müəlliminə və pedaqoji profilli ixtisaslarda təhsil alan tələbələrə STEAM metodologiyasına aid təlimlər keçirilməsi, STEAM tədris proqramı və tədris vəsaitləri hazırlanması barədə də məlumat verilib.



Diqqətə çatdırılıb ki, bu günədək 56 təhsil müəssisəsində STEAM kabinələri yaradılıb. Əlavə 50 ümumtəhsil məktəbində isə STEAM kabinələrinin yaradılması istiqamətində işlər yekunlaşır. Təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, həmin məktəblərin STEAM kabinələri üçün yeni avadanlıqlar alınıb. Bu avadanlıqlar təhsil müəssisələrində yeni təhsil metodunun yüksək səviyyədə tətbiqinə geniş imkanlar açacaqdır. Layihənin icrası ümumtəhsil məktəblərində 22 mindən çox şagirdin STEAM təhsilindən yararlanmasına şərait yaradacaqdır.

Rəhman Məmmədov STEAM kabinələrinin imkanlarından düzgün istifadə olunmasının, texnologiya dərslərinin STEAM kabinələrində tədrisinin diqqətdə saxlanılmasının, dərsləri tədris edən müəllimlərin mütəmadi olaraq öz üzərində işləmələrinin zəruriliyini vurğulayıb.

Qeyd olunub ki, Ali Məclis Sədrinin qayğısı sayəsində bu gün muxtar respublikanın ümumtəhsil müəssisələrinin müasir texniki avadanlıqlarla təchizatı da diqqətdə saxlanılır. Elə bu məqsədlə də Təhsil Nazirliyinin nəzdində təsis edilmiş "Texniki Servis Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinə də ümumtəhsil məktəblərindəki elektron lövhə və kompüterlərə texniki dəstək göstərmək məqsədilə yeni avadanlıqlar alınıb.

Təhsil naziri təhsilə göstərdiyi qayğıya görə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra təhsil müəssisələrinin STEAM kabinələri və "Texniki Servis Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün alınmış avadanlıqlara baxış olub.

Təhsil Nazirliyinin Tədris-İnnovasiya sektorunun müdiri Murad Babayev məlumat verib ki, STEAM kabinələri müasir dizaynda mebel avadanlıqları və elektron lövhə ilə təchiz edilib. Bu gün isə həmin kabinələr üçün 50 ədəd 3D printer, 100 ədəd 3D çap materialı, 600-dən çox arduino proqramlama inkişafı və layihə dəsti, 50 grove alfa inkişaf dəsti, 250 günəş paneli, 250 mikrobit dəsti, 300 servo mühərrik, 100 ədəd 3D qələm, 50 elektron dövriyyə dəsti, 62 müxtəlif funksiyalı robot dəstləri, layihələrin hazırlanmasında istifadə olunacaq 2000-dən çox elektron komponent və digər STEAM qurğuları, həmçinin 50 dəst emalatxana alətləri, layihələrin hazırlanması üçün xammal və tədris üçün lazımi materiallar alınıb. STEAM üzrə tədrisin təşkili məqsədilə məktəblərin dərsliklərlə təminatı da diqqətdə saxlanılıb, yeni yaradılan 50 STEAM kabinəsi "Robotexnika", "Arduino tətbiqetmə kitabı", "Robot layihələri", "Robotexnikanın əsasları", "İncəsənət: 3D modelləşdirmə", "Mühəndislik: mikrobit layihələri" kitabları ilə təmin olunub.

Eyni zamanda təhsil müəssisələrinin texniki avadanlıqlarla təminatı məqsədilə "Texniki Servis Mərkəzi" MMC-yə 8 notebook, 70 proyektor, 84 VGA, 24 USB printer və 10 internet kabeli, 10 HDMI kabeli, 42 CHİP, 29 lampa, 10 ram, 10 klaviatura, 5 batareya, 5 SD kart, 7 ana kart, 2 monitor, 12 elektron lövhə qələmi, 5 qulaqcıq, 10 HDMI converter, 10 VGA artırıcı, 10 mouse və digər kompüter hissələri, mərkəzə isə lehim və qaynaq aparatları, mikroskop, lupa eynəklər, dijital multimetrə, lehim sökmə pompası, HDD-DVD oxuducu və digər qurğular təhvil verilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

31 Mart Azərbaycanlıların Soyqırımı Günüdür

## Vətən müharibəsində qazanılan Tarixi Qələbə xalqımıza qarşı törədilən soyqırımı siyasətinə ən tutarlı cavabdır

Erməni millətçilərinin Azərbaycan xalqına qarşı ərazi iddialarının, təcavüzünün və soyqırımı siyasətinin iki yüz ildən artıq tarixi vardır. İki əsr ərzində Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə məruz qalmışdır. Bu mənfur siyasətin məqsədi Azərbaycan torpaqlarının böyük bir qismini ələ keçirmək, azərbaycanlıları ata-baba torpaqlarından sıxışdırıb çıxarmaq, sonra həmin ərazilərdə "böyük Ermənistan" dövləti yaratmaqdı. Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra ermənilərin xalqımıza qarşı törətdikləri soyqırımların mahiyyəti tam açılmış, həmin hadisələrə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilmişdir. Dahi şəxsiyyət torpaqlarımızın işğalının qarşısını almış, güclü dövlət və güclü ordu yaratmış, Azərbaycanın haqq səsinin dünyaya çatdırılması və erməni saxtakarlığının ifşası istiqamətində tədbirlər görmüşdür. Ulu öndərin "Azərbaycanlıların soyqırımı haqqında" 1998-ci il 26 mart tarixli Fərmanında ermənilərin Azərbaycan xalqına qarşı apardığı soyqırımı siyasəti dərindən təhlil olunmuş, 31 Martın "Azərbaycanlıların Soyqırımı Günü" kimi qeyd olunması qərara alınmışdır. Həmin Fərmanda deyilir: ***"Azərbaycanın XIX-XX əsrlərdə baş verən bütün faciələri torpaqlarının zəbti ilə müşayiət olunaraq ermənilərin azərbaycanlılara qarşı düşünülmüş, planlı surətdə həyata keçirdiyi soyqırımı siyasətinin ayrı-ayrı mərhələlərini təşkil etmişdir. Bu hadisənin yalnız birinə – 1918-ci il mart qırğınına siyasi qiymət verməK cəhdi göstərilmişdir. Azərbaycan Respublikası bu gün soyqırımı hadisələrinə siyasi qiymət verməK borcunu tarixin hökmü kimi qəbul edir".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin azərbaycanlıların soyqırımının 100 illiyi haqqında 2018-ci il 18 yanvar tarixli Sərəncamında qeyd olunur ki: ***"Erməni millətçiləri tarixin müxtəlif mərhələlərində mifik "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək məqsədilə soydaşlarımıza qarşı etnik təmizləmə, deportasiya və soyqırımları həyata keçirmişlər. Azərbaycan xalqının başına gətirilən ən dəhşətli faciələrdən biri də 100 il bundan əvvəl – 1918-ci ilin mart-aprel aylarında Bakı Sovetinin mandatı altında fəaliyyət göstərən daşnak-bolşevik silahlı dəstələri tərəfindən xüsusi qəddarlıqla törədilmiş kütləvi qırğınlardır. Həmin günlərdə Bakı şəhərində, habelə Bakı quberniyasına daxil olan digər şəhər və qəzalarda on minlərlə dinc sakin məhz etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerləyeksan edilmişdir. Sonrakı dövrlərdə daha da azğınlaşan erməni millətçiləri qeyri-insani əməllərini davam etdirmiş, Qarabağ, Zəngəzur, Naxçıvan, Şirvan, İrəvan və digər bölgələrdə kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirmişlər".***

Aparılan araşdırmalar nəticəsində 1918-ci il hadisələri zamanı ermənilərin törətdikləri kütləvi insan qətllərini aşkarlayan faktlar, saysız-hesabsız insan sümükləri və digər maddi sübutlar aşkarlanmışdır. Bu həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə Quba şəhərində Soyqırımı Memorial Kompleksi yaradılmışdır. Hər il minlərlə insan bu məkanı ziyarət edərək qətlə yetirilmiş soydaşlarımızın əziz xatirəsini yad edir.

Tarixən hər bir böyük güc öz imperialist siyasətini həyata keçirərkən müxtəlif bəhanələrdən və amillərdən istifadə etmişdir. "Böyük Ermənistan" vədi ilə qızışdırılan ermənilər aldıqları silah-sursat və maddi qaynaqlarla təşkilatlanır, təlimatlandırılır və genişmiqyaslı cinayət hadisələrinə imza atırdılar. O dövrün yazılı mənbələri və arxiv materialları 1905-1907-ci illərdə Azərbaycanın bir çox bölgələrində, o cümlədən Naxçıvanda ermənilərin çar Rusiyasının yardımı ilə soyqırımı gerçəkləşdirdiklərini sübut edir. Hələ XX əsrin əvvəllərində çarizmin Qafqazdakı canişini qraf Vorontsov-Daşkov çar II Nikolaya yazdığı məktubunda *"münaqişənin başlanması üçün kiçik bir bəhanənin kifayət edəcəyini"* bildirmişdi. Amerikalı alim Castin Makkarti isə münaqişənin hansı səbəblərdən ortaya çıxması ilə bağlı yazır ki, çar Rusiyası hər iki millət arasında baş verən münaqişəni öz maraqları baxımından faydalı görürdü. Tarixi sənədlərdə erməni daşnakları ilə birlikdə çar məmurlarının da milli münaqişəni bilavasitə qızışdırdıqları, evlərin, mağazaların talan edilməsində, qətliamların törədilməsində birbaşa rol oynadıqları yer almaqdadır.

Ermənilər tərəfindən azərbaycanlılara qarşı milli qırğın 1905-ci il fevral ayının ilk ongünlüyündə Bakıdan başlandı və tezliklə Azərbaycanın digər bölgələrinə, o cümlədən Naxçıvana da yayıldı və getdikcə şiddətləndi. Naxçıvandakı qırğın daşnakların və çar məmurlarının təhrikləri nəticəsində baş verdi. 1905-ci il hadisələrinin şahidi olan M.S.Ordubadi "Qanlı illər" adlı əsərində münaqişənin ortaya çıxmasının səbəblərini belə izah edir: 1) Erməni Daşnaksütyun komitəsinin müstəbid idarə üsulunu təşkil etməsi, qızışdırıcı mövqe tutması; 2) Məhəlli hökumət məmurlarının etinasızlığı və çar üsulidarəsinin ikili oyunu; 3) Müsəlman əhalinin elmsizliyi və baş verən siyasi hadisələrdən bixəbər olması və 4) Ermənilərin avtonomiya – idarə muxtariyyəti həvəsində olmaları.

Ermənilərin türkə olan nifrət psixologiyası 1905-1907-ci illərlə məhdudlaşmamış, 1918-ci ildə də davam etmişdir. Məhz bunun nəticəsidir ki, mart soyqırımı olaraq tarixə keçən 1918-ci il hadisələrində hədsiz sayda insan erməni zülmünün qurbanı olmuşdur. 1918-ci il mart ayının 30-da Bakı Sovetinin rəhbərlik etdiyi bolşevik-daşnak hərbi dəstələri Bakı şəhərində türk-müsəlman əhaliyə qarşı soyqırımı həyata keçirməyə başladı. Üç gün davam edən Bakı qırğınları zamanı əksinqilabçı və müsavatçı adı ilə 12 min dinc əhali amansızlıqla qətlə yetirildi. Bolşevik-daşnak qüvvələri tərəfindən o dövrün gözəl memarlıq abidəsi olan Müsəlman Xeyriyyə Cəmiyyətinin yerləşdiyi "İsmailiyyə" binası, Şərqin ilk teatrı olan "Tağıyev teatrı", "Açıq söz" və "Kaspi" qəzetlərinin redaksiyaları yandırıldı və "Təzə pir" məscidi dağıdıldı. Bununla da, sadəcə, insanlar soyqırımına məruz qalmadı, türk və İslam mədəniyyət mərkəzləri, tarixi abidələr də məhv edildi.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildikdən sonra Milli hökumət erməni-daşnak qüvvələrinin Bakıda və Azərbaycanın digər bölgələrində törətdiyi cinayətləri araşdırmaq üçün 1918-ci il iyulun 15-də Fövqəladə Təhqiqat Komissiyası yaratdı. Həmin komissiya törədilən qətliamlara aid sənədlər topladı. Bu sənədlər toplusu 36 cilddən ibarət idi.

Azərbaycanın bütün bölgələrində – Bakıda, Şamaxıda, Qubada, Gəncədə, Lənkəranda, Qarabağda eyni ssenari ilə əhali ağır işgəncələrlə qətlə yetirilirdi. Dro, Njde, Hamazasp, Yapon, Andranik kimi cəlladlar Azərbaycan xalqının qanına susamışdılar. Naxçıvanda baş verən cinayətlər haqqında isə, xüsusilə bəhs etmək lazımdır. Bir məsələni qeyd etmək yerinə düşər ki, Azərbaycan Xalq Cümhuriyyəti rəhbərliyi müəyyən səbəblərdən və çətinliklərdən Naxçıvana lazımi dəstək verə bilmirdi. Naxçıvan əhalisi özü ermənilərə müqavimət göstərir, hətta erməni silahlılarını məğlub edirdilər. Ancaq bununla birlikdə, ermənilər tərəfindən törədilən cinayətlər Naxçıvandan da yan keçmədi.

Bu illərdə Azərbaycandan ayrı düşmüş Naxçıvana yiyələnmək üçün daşnaklar yerli əhaliyə qarşı vəhşiliklər törədir, onları öldürür, yaşayış məntəqələrini yandırır və ərazini azərbaycanlılardan boşaltmağa çalışırdılar. 1918-ci ildə Naxçıvanda ən dəhşətli vəhşiliklər törədənlər içərisində Andranik Ozanyan, Dro, Njde, Doluxanov, Yapon və digər cəlladların başçılıq etdikləri dəstələr böyük rol oynamışlar. Həmin dövrdə Naxçıvanda fəaliyyət göstərmiş Müsəlman Milli Komitəsinin katibi işləmiş Mirzə Bağır Əliyev hadisələrin, erməni vəhşiliklərinin bilavasitə şahidi olmuş və onları qələmə almışdır. Onun "Qanlı günlərimiz" əsərindən – gündəlik qeydlərindən aydın olur ki, 1918-1921-ci illərdə Naxçıvanda ermənilər tərəfindən 74 min azərbaycanlı ən vəhşi üsullarla öldürülmüşdür. Naxçıvanda o zaman ilk soyqırımı Culfa rayonunun Yaycı kəndində törətmişlər. Erməni qaniçənlər Araz çayı sahilindəki 4 minə yaxın əhalisi olan Yaycı kəndini yerləyeksan etmiş, kənd əhalisinin 2000-2500-nü qətlə yetirmiş və Araz çayına tökmüşdü. Cəsədlərin sayı o qədər çox idi ki, böyük bir qəbiristanlıq yaranmışdı. O vaxtdan bu, Yaycı qəbiristanlığı olaraq tarixə düşmüşdür. Həmin vaxt Nehrəm ətrafında rüsvaycasına məğlub edilmiş Andranikin dəstələri geri qaçmağa məcbur olmuşdu. Ordubada doğru irəliləyən Andranik qarşısına çıxan kəndləri dağıda-dağıda bu məsafədə 2 min azərbaycanlını öldürmüşdür. Ordubad ətrafı, Əlincəçay boyu, Şahbuz kəndlərinin əhalisi tərksilah olunmuş, xeyli hissəsi qətlə yetirilmişdir. Nursu, Kolanı, Hənzər, Mahmudoba, Əbrəqunus, Qazançı, Paradaş, Xanağa, Bənəniyar, Camaldın, Ərəzin, Kırna kəndlərində də dəhşətli qırğınlar törədilmişdir.

Arxiv materiallarında ermənilərin, xüsusilə də Andranik Ozanyanın silahlı dəstələrinin İrəvan əyalətində 200-dən çox, Naxçıvan, Şərur-Dərələyəz və Ordubad nahiyələrində də 50-dən çox müsəlman kəndlərinə silahlı hücumlar təşkil etdiklərinə, kənd əhalisinin böyük əksəriyyətinin qətlə yetirildiyinə dair məlumatlar yer almaqdadır.

Tarixi sənədlərdə Şərur bölgəsinə bağlı 45 kəndin də erməni komitəçilərinin hücumuna məruz qaldığı və əhalisinin də Araz çayına atılması ilə bağlı məsələlər göstərilir. Müsəlmanlar tərəfindən ələ keçirilən ermənilər Naxçıvanda və onun bütün kəndlərində türklərin qətlə yetiriləcəkləri və hamısının Araz çayına atılacaqlarına dair əmr aldıqlarını etiraf etmişdilər. Erməni dəstələrinə yazılı olaraq göndərilən əmrdə deyilir: *"Şərur əhalisini Araz çayına atmaq üçüncü alay komandanlığının əsas vəzifəsidir"*. Digər bir fakt: Andranikin qoşunları Sirab kəndinə istiqamət aldığı vaxt Sirab kəndi ətrafında çoxlu qaçqın toplaşmışdı. Onlar kəndin özündən, habelə uzaq və ətraf kəndlərdən gələnlər idi. 15 mindən artıq erməni quldurlarının silahsız, müdafiəsiz insanların üzərinə hücumu nəticəsində bir gün ərzində 10 mindən artıq günahsız insan qətlə yetirildi. Bu vaxt Duzdağ tərəfdən açılan top səslərini Andranik eşitməsəydi, orada bir nəfər də sağ qalmayacaqdı. Andranikin dəstəsi Naxçıvan və onun ətraf kəndlərində törətdiyi vəhşiliklərdən sonra Şuşayadək Azərbaycan kəndlərini oda yaxıb viran qoymuş, sonra Dərələyəzə qayıtmış, Keşişkənddə Yapon adlı digər erməni daşnakı ilə birləşərək Çivə kəndinə hərəkət etmiş, yolüstü Əmov kəndində qırğın təşkil etmişdir. O, Şərur rayonunun Danzik, Dizə kəndlərinə də hücum etmək istəmiş, lakin məğlub olmuşdu. Andranik bu məğlubiyyətin əvəzini Qarağacda və Şabili kəndlərini yandırıb əhaliyə divan tutmaqla çıxır. Törətdiyi qırğınların miqyası o qədər böyük idi ki, Andranik öz qanlı cinayətləri ilə artıq Naxçıvanı öz hakimiyyətinə tabe etdiyini düşünürdü. Onun məqsədi Şuşadan başlamış Aralıq dənizinədək uzanan əraziləri nəzarət altına almaq idi. Bu minvalla Azərbaycan və Türkiyənin 6 əyaləti "böyük Ermənistan"ın tərkibinə daxil olmalı, yəni "dənizdən-dənizə" terrorçu, hərbiləşdirilmiş Daşnak Partiyasının ruhuna uyğun hökumət yaradılmalı idi.

1915-1921-ci illər arasında Cənubi Azərbaycanda ingilislərin və rusların təşviqi ilə təşkilatlanan və silahlanan erməni ordusunun qətlə yetirdiyi insanların sayı 90 mindən çox idi. Bütün bunlarla yanaşı, naxçıvanlılar mərdliklə döyüşmüş, Naxçıvanın erməni işğalına məruz qalmasına yol verməmişlər. Bununla əlaqədar 20 tabor yaradılmış, onlar silahlandırılmış, üçüncü Kalbalı xanın başçılığı ilə 500 nəfərdən ibarət süvari dəstə böyük rəşadət göstərmişdir. Onlar erməni daşnaklarına dəfələrlə layiqli cavab vermiş, ərazidən qovmuşlar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"1918-1920-ci illərdə ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş ikinci soyqırımı həm miqyası, həm də vəhşiliyi etibarilə bəşəriyyət tarixində ən qanlı cinayətdir... O dövrdə azərbaycanlıların yaşadıqları elə bir ərazi yox idi ki, orada erməni talanı və vəhşiliyi həyata keçirilməsin. Bu illərdə Azərbaycandan ayrı düşmüş Naxçıvanda da soyqırımlar törədilmişdir... Xüsusi amansızlıqla aparılan soyqırımlara baxmayaraq, naxçıvanlılar düşmən qarşısında mərdliklə dayanır və mübarizə aparırdılar. Bu mübarizədə Naxçıvanın özünümüdafiə dəstələrinin xidmətlərini, xüsusilə qeyd etmək lazımdır. Onlar əsl vətənpərvər kimi döyüşərək Azərbaycanın qədim diyarının işğalına yol verməmişdilər".***

2020-ci ilin sentyabr ayının 27-də Ermənistan Silahlı Qüvvələrinin ölkəmizə növbəti təxribatı Azərbaycan Ordusunu əks-hücuma keçməyə məcbur etdi. 30 il yaxın bir müddətdə düşmən tapdağı altında qalmış torpaqlarımızın azad edilməsi, beynəlxalq hüquqla təsbit olunan ərazi bütövlüyünün təminatı üçün bütün imkanlardan istifadə etdi, eyni zamanda XXI əsrin döyüş bacarıqlarını ortaya qoymaqla müasir dünyaya necə döyüşməyin nümunəsini göstərdi. Azərbaycan Silahlı Qüvvələri tərəfindən düşmənin yüzlərlə tank, piyada döyüş maşınları, minaatan, müxtəlif çaplı artilleriya qurğuları, onlarla zenit-raket kompleksləri, radio elektron mübarizə vasitələri sıradan çıxarıldı, çoxsaylı hərbi texnikaları qənimət kimi ələ keçirildi. Təbii ki, bu günədək əldə olunmuş nailiyyətlər, Azərbaycan əsgərinin gücü, onun döyüş hazırlığı, Ali Baş Komandan-xalq-ordu birliyindən qaynaqlanmışdı. Əgər Azərbaycan əsgəri hərtərəfli döyüş hazırlığına, yüksək vətənpərvərlik ruhuna malik olmasaydı, o zaman əlimizdəki müasir silahların da bir dəyəri olmayacaqdı.

44 günlük mübarizədə naxçıvanlılar öz vətəndaşlıq borclarını yüksək səviyyədə yerinə yetirdilər. Bunu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin verdiyi qiymət də təsdiq edir: ***"Naxçıvanlılar da İkinci Qarabağ müharibəsində bütün digər bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər... Böyük qəhrəmanlıq göstəriblər. Və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər".***

*Ermənilərin ikiüzlülük əsassız iddialarının boşa çıxması, Vətən müharibəsində qazandığımız Tarixi Qələbə ilə əzəli torpaqlarımızın işğaldan azad edilməsi haqqın qələbəsidir, xalqımıza qarşı törədilən soyqırımı siyasətinə ən tutarlı cavabdır.*

**"Şərq qapısı"**

## 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş tədbirlər keçirilib



Naxçıvan Dövlət Universitetində 31 Mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı tədbir keçirilib. Tədbirdə soyqırımı qurbanlarının və Vətənimiz uğrunda canından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov qeyd edib ki, 1998-ci il martın 26-da ümummilli liderimiz Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" Fərman erməni millətçilərinin cinayətkar əməllərinə verilən dolğun və hərtərəfli siyasi qiymət olub. Bu tarixi sənəd Azərbaycanın indiki və gələcək nəsillərinin milli yaddaşının qorunması baxımından da fundamental bir proqramdır.

Ali Baş Komandanın qətiyyəti və şanlı ordumuzun rəşadəti ilə qazandığımız qələbəni düşmənə verilən layiqli dərs kimi dəyərləndirən prorektor gənc nəsli soyqırımı qurbanlarının, hər iki Qarabağ müharibəsi şəhidlərinin xatirəsini daim əziz tutmağa və tarixboyu bədnam qonşularımızın başımıza gətirdikləri faciələrdən ibrət almağa çağırıb.

Sonra çıxışlar dinlənilib, soyqırımı hadisələrini əks etdirən sənədli film nümayiş olunub.



Naxçıvan şəhərindəki Xatirə Muzeyində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı ilə 31 Mart – Azərbaycanlıların Soyqırımı Gününə həsr olunmuş "Yaycı Soyqırımı" adlı tədbir olub.

Mərkəzin elmi katibi Nihad Tarverdiyev qeyd etmişdir ki, 1918-ci ilin mart-aprel aylarında azərbaycanlılara qarşı törədilən soyqırımı Naxçıvanda da xüsusi qəddarlıqla həyata keçirilmiş, Yaycı kəndində ermənilər tarixdə bənzəri olmayan vəhşiliklər törətmişdilər. Diqqətə çatdırılmışdır ki, 2007-ci ildə Yaycı kəndində soyqırımı qurbanlarının xatirəsi əbədiləşdirilərək abidə inşa olunmuşdur.

AMEA Naxçıvan Bölməsi Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun əməkdaşı Nilufər Ağayeva çıxışında bildirmişdir ki, Naxçıvan bölgəsində azərbaycanlıların soyqırımları erməni-daşnak silahlı dəstələrinin Azərbaycan xalqına qarşı həyata keçirdikləri kütləvi soyqırımı siyasətlərindən biri kimi tarixə yazılmışdır.

Tədbirdə Xatirə Muzeyinin direktoru Aytən Qasımova muzey haqqında ətraflı məlumat vermiş, muzeyin ekspozisiyası ilə tanışlıq olmuşdur.

**Xəbərlər şöbəsi**

## “Defscope” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən bank əməkdaşları üçün seminar



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə “Defscope” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən muxtar respublikada fəaliyyət göstərən bank əməkdaşları üçün “Bank sistemlərinin proqram təminatlarında istifadə olunan müasir proqramlaşdırma texnologiyaları, banklarda informasiya sistemlərinin təhlükəsizliyinin təmin edilməsi və bank əməliyyatlarının aparılması zamanı zərərverici proqram təminatlarından müdafiə üsulları” mövzusunda seminar keçirilib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin sədri Elçin Əliyev tədbirin mahiyyəti haqqında ətraflı məlumat verib. Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev rabitə və yeni texnologiyalar sahəsinə göstərilən dövlət qayğısından bəhs edərək bildirib ki, muxtar respublikada sosial-iqtisadi həyatın bütün sahələrində yeni texnologiyalar geniş tətbiq olunur, bu sahənin maddi-texniki bazasının gücləndirilməsi, əhalinin informasiya-kommunikasiya texnologiyalarına çıxış imkanlarının yaxşılaşdırılması, mobil rabitə xidmətinin əhatə dairəsinin genişləndirilməsi diqqətdə saxlanılır. O cümlədən nazirlik tərəfindən ixtisaslı kadrların hazırlanması, işçilərin zəruri peşə istiqaməti üzrə biliklərinin artırılması, habelə müvafiq peşə ixtisasına yiyələnmələri istiqamətində müvafiq tədbirlər həyata keçirilir. Nazir seminarın mövzusunun əhəmiyyətinə də toxunaraq müasir dövrdə informasiyanın qorunması və saxlanılmasının vacibliyini də qeyd edib.

“ORIENT” İnformasiya Texnologiya Mərkəzinin təsisçisi, “Java” proqramlaşdırma dili üzrə peşəkar təlimçi, “Bank Respublika” ASC-nin Backend Development meneceri Fuad Paşabəyli bank sektorunda istifadə olunan müasir proqramlaşdırma texnologiyaları haqqında onlayn təlim keçib.

“Defscope” Məhdud Məsuliyyətli Cəmiyyətinin təsisçisi və direktoru, Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən “Sirius Computer Solutions” şirkətinin aparıcı məsləhətçisi, “INSECO” İnformasiya Təhlükəsizliyi Təşkilatı İctimai Birliyinin həmtəsisçisi Vüsal Salmanlı seminar zamanı bildirib ki, informasiya texnologiyaları bank işinin həyata keçirilməsində həlledici rol oynayır və bu texnologiyalar insanlara lazımlı əməliyyatların aparılması üçün əhəmiyyətli dərəcədə şərait yaradır. Lakin müasir texnologiyalardan istifadə və rəqəmsal transformasiya prosesi kiberhücumların artmasına da zəmin yaradır. Kiberhücumların qarşısının alınması üçün informasiya təhlükəsizliyinin əsas anlayışları, kompüter sistemlərində və şəbəkələrində informasiya hədələri haqqında məlumatlar təhlil edilməli, yarana biləcək təhlükələri azaltmaq üçün risklərə nəzarət edilməli, İnformasiya Təhlükəsizliyi sistemlərinin, saxlanılan məlumatların və sənədlərin qorunması, ehtiyat surətlərin yaradılması təmin olunmalıdır.

Həmçinin təlimdə bank sektorunda kiberhücumların tipləri, metodologiyası, təhdidlərin növləri, beynəlxalq təcrübədə istifadə olunan kibertəhlükəsizlik həlləri və təhdidlərinin qarşısının alınması üsulları haqqında ətraflı məlumat verilib, banklarda informasiya təhlükəsizliyinin təşkil edilməsi, risklərin effektiv idarə edilməsi və onların səmərəli tətbiqi yollarından bəhs edilib.

2022-ci il aprel ayının 1-dən qüvvədə olması nəzərdə tutulmuş “Banklarda informasiya təhlükəsizliyinin idarə edilməsi Qaydası” haqqında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 14 iyul 2021-ci il tarixli Qərarına əsasən banklarda informasiya təhlükəsizliyinin təşkil edilməsi barəsində də seminar iştirakçılarına ətraflı məlumat verilib.

Seminarın sonunda bank əməkdaşlarını maraqlandıran suallar cavablandırılıb.

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**

## Seminar-müşavirə keçirilib

*Naxçıvan Müəllimlər İnstitutunda “Təhsilalanların elmi-tədqiqat fəaliyyətinin təşkili vəziyyəti və qarşıda duran vəzifələr” mövzusunda növbəti seminar-müşavirə keçirilib.*

Tədbiri giriş sözü ilə açan institutun rektoru Azad Novruzov bildirib ki, respublikamızda elmin inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biridir. Həmçinin elm və təhsilin inteqrasiyasının təmin edilməsi, yüksəkixtisaslı elmi kadrların hazırlanması sisteminin təkmilləşdirilməsi qarşıda duran əsas vəzifələrdəndir.

Rektor vurğulayıb ki, institutda tələbələrin Tələbə Elmi Cəmiyyəti xətti ilə elmi-tədqiqat işlərinə cəlb edilməsi, magistratura, doktorantura və dissertantura yolu ilə elmi kadr hazırlığı keyfiyyətcə yeni səviyyəyə qaldırılır, mütəmadi olaraq gənc tədqiqatçılar üçün ixtisasartırma kursları və elmi-praktik konfranslar təşkil edilir, onların ölkə və beynəlxalq elmi layihələrdə iştirakı təmin edilir. Rektor



tədbirin əhəmiyyətini xüsusilə qeyd edərək bildirib ki, bu istiqamətdə atılan hər bir addım bugünkü Tələbə Elmi Cəmiyyəti üzvlərinin sabahın alimləri kimi yetişdirilməsi işinə xidmət edir.

İnstitutun elmi katibi, dosent Qurban Qurbanlının “Naxçıvan Müəllimlər İnstitutunda təhsilalanların elmi-tədqiqat fəaliyyətinin təşkili vəziyyəti və qarşıda duran vəzifələr”, Riyaziyyat və onun tədrisi metodikası kafedrasının müdiri, professor Yaqub Məmmədovun “Tələbə və magistrantların elmi-tədqiqat işlərinə verilən tələblər və onların təmin edilməsi yolları” mövzularında çıxışları olub. Diqqətə çatdırılıb ki, bu gün institutun 250-dək tələbə və magistrantı Tələbə Elmi Cəmiyyəti xətti ilə elmi-tədqiqat fəaliyyətinə cəlb edilib.

Sonra Riyaziyyat-informatika müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi, Tələbə Elmi Cəmiyyətinin sədri Aysun Nağdəliyevanın “Naxçıvan Müəllimlər İnstitutunun Tələbə Elmi Cəmiyyəti: 2021-2022-ci tədris ilinin I yarımilinin yekunları və qarşıda duran vəzifələr” mövzusunda çıxışı dinlənilib.

Seminar-müşavirə müzakirələrlə davam edib, mövzu ilə bağlı tələbələri maraqlandıran suallar cavablandırılıb. Naxçıvan Müəllimlər İnstitutunda 2021-2022-ci tədris ilinin yaz semestrində TEC-in fəaliyyət qrafiki müəyyənləşdirilib.

**Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti**

*AMEA Naxçıvan Bölməsində bölmənin Əlyazmalar Fondunun baş direktoru, filologiya elmləri doktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü Fərman Xəlilovun 70 illik yubileyi ilə əlaqədar tədbir olub.*

## Ədəbiyyatşünas alimin 70 illiyi qeyd olunub



Tədbiri giriş sözü ilə bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq yubilyarın həyat və fəaliyyətinə nəzər salıb, onu tədqiqatçı və pedaqoq kimi xarakterizə edib, mühüm insani keyfiyyətlərindən söz açıb. Vurğulanıb ki, daşıdığı məsul vəzifələrin öhdəsindən uğurla gələn, təşəbbüskarlığı, elmi yaradıcılığa sevgisi, yenilikçi fikirləri ilə hər zaman seçilən arxivşünas alim Fərman Xəlilov 20-yə yaxın kitab və monoqrafiyanın, 200-ə yaxın elmi məqalənin müəllifidir. O, sahib olduğu məziyyətlərə, eləcə də müəllifi olduğu əsərlərin elmi əhəmiyyətinə, əhatəlilik səviyyəsinə, tərtib keyfiyyətlərinə görə gənc nəsil tədqiqatçılar üçün nümunədir.

Bölmənin sədri Fərman Xəlilova 70 illik yubileyi münasibətilə təbriklərini çatdırıb, yubilyarı AMEA Naxçıvan Bölməsi Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edib.

Tədbirə onlayn qoşulan AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun icraçı-direktoru, filologiya elmləri doktoru Paşa Kərimov Fərman Xəlilovu əlyazmaçı alim, zəhmətkeş və ömrünü elmə həsr edən tədqiqatçı kimi səciyyələndirib. Alimin elmi yaradıcılığı haqqında fikirlərini bölüşüb, ona öz xoş diləklərini çatdırıb.

Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü, professor Hacıfəxrəddin Səfərli “Filologiya elmləri doktoru Fərman Xəlilovun həyatı, elmi və pedaqoji fəaliyyəti” mövzusunda məruzə ilə çıxış edib. Bildirilib ki, görkəmli alim, filologiya elmləri doktoru Fərman Yunis oğlu Xəlilov hələ tələbəlik illərində fəallığı ilə seçilib, müxtəlif konfranslarda Naxçıvan teatrı və maarif tarixi ilə bağlı məruzələr edib, kiçikhəcmli təmsillər yazıb, “Şərq qapısı” və başqa qəzetlərdə məqalələr dərc etdirib.

Qeyd olunub ki, Fərman Xəlilov “Mirzə Əli Möcüzün yaradıcılıq yolu” adlı namizədlik, “Mirzə Əli Möcüz: mühiti, müasirləri və ədəbi irsi” adlı doktorluq dissertasiyalarını uğurla müdafiə edib. O, apardığı uzunmüddətli tədqiqatlar, arxiv və kitabxanalardan topladığı materiallar, araşdırdığı ən incə məsələlər nəticəsində möcüzşünas alim kimi püxtələşib. Fəaliyyətinin 40 ilini şərəfli müəllimlik peşəsinə həsr edən Fərman Xəlilov pedaqoji fəaliyyətlə yanaşı, elmi axtarışlarını da davam etdirib.

Onun çap olunmuş kitabları və məqalələri özünün mövzu-problematika aktuallığı, elmi təhlillərin dərinliyi və dolğunluğu ilə səciyyələnir. Elmi yaradıcılığının son 10 ilini AMEA Naxçıvan Bölməsi ilə bağlayan alim 2013-cü ilin noyabr ayından İncəsənət, Dil və Ədəbiyyat İnstitutunda Ədəbiyyatşünaslıq şöbəsinin müdiri vəzifəsində çalışıb, 2016-cı ildən günümüzədək AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunun direktoru kimi məsul vəzifəni uğurla icra etməkdədir.

Tədbirdə bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent Zülfiyyə İsmayıl, Elmi Kitabxananın direktoru Sahab Əliyeva, Naxçıvan Dövlət Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Xanəli Kərimli, Əlyazmalar Fondunun şöbə müdiri Fəxrəddin Eylazov və yubilyarın oğlu Yunis Xəlilovun çıxışları dinlənilib.

Sonda yubilyar Fərman Xəlilov ürək sözlərini tədbir iştirakçıları ilə bölüşüb. Naxçıvanda elmin inkişafına, elm adamlarına göstərilən diqqət və qayğıya görə muxtar respublika rəhbərinə minnətdarlığını bildirib.

**AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti**

## Əhalinin sağlamlığı diqqətdə saxlanılır

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi əhalinin sağlamlığının qorunması və tibbi xidmətin səviyyəsinin yüksəldilməsi istiqamətində fəaliyyətini fevral ayında da davam etdirib, yoluxucu xəstəliklərin profilaktikası, ilkin səhiyyə xidmətinin yeni tələblərə uyğunlaşdırılması diqqətdə saxlanılıb.***





Ötən ay Azərbaycan Respublikası Səhiyyə Nazirliyi İnnovasiya və Təchizat Mərkəzindən dializ olunan xroniki böyrək çatışmazlığı olan xəstələr üçün dializ materialları və dərman preparatları, COVID-19 virusuna qarşı Sinovac və Pfizer vaksinləri gətirilib.

Tibb işçilərinin peşə bacarıqlarının yüksəldilməsi istiqamətində tədbirlər davam etdirilib. Ay ərzində 5 həkim Türkiyə Respublikasına, 1 həkim Bakı şəhərinə təkmilləşmə kursu, 1 həkim, 1 həkim-rezident və 18 orta tibb işçisi Naxçıvan şəhərində iş yerində təcrübə keçməsi üçün göndərilib. Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin göndərişi ilə 28 məktəb tibb bacısı, 26 tibb statist Naxçıvan Tibb Kollecində nəzəri və praktik kurs keçib. Süni tənəffüs aparatı ilə işləyən 42 tibb işçisinə 2 həkim anestezioloq-reanimatoloq və süni tənəffüs aparatı üzrə texnikin iştirakı ilə Ordubad, Culfa, Şərur Rayon Mərkəzi xəstəxanalarında “Süni tənəffüs aparatları və reanimasiya tədbirləri” mövzusunda praktik məşğələ keçirilib. Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin 14 və Tibb Kollecinin 39 tələbəsi tibb müəssisələrinə hamiliyə verilib.

Hesabat ayında Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin iş planına uyğun olaraq həkim və tibb işçiləri rayon mərkəzlərinin, qəsəbə və kəndlərin, eləcə də ucqar sərhəd və dağ yaşayış məntəqələrinin səhiyyə müəssisələrində yaradılan imkanlar hesabına əhalinin tibbi müayinəsini uğurla davam etdiriblər. Naxçıvan Muxtar Respublika Xəstəxanasının yaratdığı həkim briqadası Culfa rayonunda keçirdiyi humanitar aksiya çərçivəsində 61 uşaqda sünnət əməliyyatı aparıb. Eyni zamanda xəstəxananın göz həkimləri rayonlarda şəkərli diabet xəstəliyindən əziyyət çəkən 134 xəstənin göz dibinin müayinəsini həyata keçirib, lazımi məsləhət və tövsiyələr verib.

Bakı şəhərindən dəvət olunmuş LOR həkimi tərəfindən Muxtar Respublika Xəstəxanasında 6, Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin həkimləri tərəfindən isə 35 nəfərdə müayinə və cərrahiyyə əməliyyatları aparılıb. Bakı şəhərindən dəvət olunmuş həkimlər tərəfindən Diaqnostika Müalicə Mərkəzində 64 nəfərdə müxtəlif cərrahi əməliyyatlar yerinə yetirilib.

Naxçıvan Muxtar Respublikası Onkoloji Mərkəzinin həkimləri tərəfindən Naxçıvan şəhər 8 nömrəli tam orta məktəbin təhsil işçilərindən 76 qadında süd vəzinin profilaktik müayinəsi aparılıb, 4 nəfərdə patologiya aşkar olunaraq onlar mərkəzə ətraflı müayinə və müalicəyə dəvət olunub. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və digər müvafiq təşkilat nümayəndələrinin iştirakı ilə Naxçıvan şəhərində 16 və 12 nömrəli tam orta məktəblərdə yoxlamalar və Ordubad rayonunda seminar keçirilib.

Ay ərzində Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən Naxçıvan şəhərində fəaliyyət göstərən tibb müəssisələrinin sanitar-gigiyenik vəziyyəti yoxlanılıb, nöqsanların aradan qaldırılması üçün tapşırıqlar verilib. Həmçinin Gigiyena və Epidemiologiya Mərkəzi və rayon şöbələri tərəfindən 60 istehsal obyektində aparılan monitorinqlər zamanı 18 sahibkara şifahi xəbərdarlıq edilib. 8 və 15 nömrəli tam orta məktəblərdə su çiçəyi xəstəliyinə qarşı profilaktik məqsədlə epidemioloji müayinələr aparılıb. 22 gözəllik salonunun sanitar-gigiyenik vəziyyəti yoxlanılaraq aşkar olunan nöqsanların aradan qaldırılması üçün göstərişlər verilib. Mərkəzdə “Sterilizasiya işinin düzgün təşkili” mövzusunda kursa şəhər və rayon tibb müəssisələrinin sterilizasiya tibb bacıları cəlb olunub.

COVID-19 xəstəliyinə qarşı profilaktika tədbiri olaraq fevral ayında 2051 nəfərə I, 3586 nəfərə II, 11096 nəfərə III, 192 nəfərə IV tur vaksinasiya edilib. Bununla yanaşı, qanla işləyən tibb işçilərindən 738 nəfərə I, 47 nəfərə II, 2 nəfərə III doza hepatitə qarşı vaksin vurulub. Ay ərzində mövsümi qripə qarşı risk qruplarından 1501 nəfərdə vaksinasiya aparılıb.

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi tərəfindən ötən ay muxtar respublika üzrə 8 nəfər Mərdəkan qəsəbəsində yerləşən Müharibə və Əmək Veteranları Pansionatına, 6 nəfər Naxçıvan Muxtar Respublikasının Əlillərin Bərpa Mərkəzinə reabilitasiya müalicəsinə, 6 nəfər isə müxtəlif xəstəxanalara müalicəyə göndərilib.

**Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti**

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Yazıçılar Birliyinin birgə təşkilatçılığı ilə muxtar respublikanın ümumtəhsil məktəblərinin şagirdləri arasında keçirilən "Gənc istedadlar" müsabiqəsinə Vətən müharibəsi iştirakçısı atası haqqında maraqlı yazı işi təqdim edən Naxçıvan Qarnizonu tam orta məktəbinin VI sinif şagirdi Fərhadlı Furqan Səid oğlu müsabiqənin nəticələrinə əsasən nəsr əsərləri üzrə I yerin qalibi seçilib. Günümüzün gerçəkliklərini əks etdirən, sadə uşaq səmimiyyəti və şirin təhkiyyə dili ilə yazılan həmin esseni biz də oxucularımıza təqdim etmək qərarına gəldik.***

## Atamla fəxr edirəm!

*(esse)*

2020-ci il sentyabrın 27-si xalqımızın tarixində yeni səhifələrin başlanğıcı oldu. Həmin gün illərdir, erməni tapdağında inləyən Vətən torpağı azadlığın astanasına gəlmişdi. Mən və dostlarım qəribə bir sevinc hiss edirdik, bəlkə də, uşaq olduğumuz üçün "müharibə" kəlməsinin fərqinə varmırdıq. Müharibə filmlərində gördüyümüz səhnələr idi. Hamımız hərbçi övladı idik, hamımız istəyirdik ki, atamız döyüşə getsin və qəhrəman olsun. Günlər keçir, müharibə alovlanır, ordumuz erməniləri əzərək ard-arda torpaqlarımızı azad edirdi. Cəbhədən həm sevinc, həm də kədər dolu xəbərlər gəlirdi. Şəhid xəbərləri hamını dərindən sarsıdırdı. Atam yorğun və fikirli, anam isə daim gözü yaşlı idi.



Biz daha əvvəlki kimi sevincli deyildik. "Müharibə" sözünün mənasını anlamağa başlayırdıq. Atam xüsusi təyinatlı hərbçi idi, yoldaşları ilə birgə döyüşə getmək üçün əmr gözləyirdi. Nəhayət, həmin gün gəldi. Atamla birgə həm qonşumuz, həm də yaxın ailə dostumuz Anar əmi də (polkovnik-leytenant Anar Əliyev) döyüşə getməyə hazırlaşırdı. Atam bu xəbəri bizə deyəndə hiss etdiklərimi indi sözlə ifadə edə bilmirəm. Atamgilin hazırlığı bir neçə gün çəkdi...

Məktəbdə idim, zəng vuruldu. Müəllim yenicə dərsə başlamışdı ki, qapı döyüldü. Atamın məni məktəb həyətində gözlədiyini söylədilər. Cəld sinif otağını tərk edib, məktəbin həyətinə doğru qaçdım. Atam mənimlə vidalaşmağa gəlmişdi. Ona elə sarıldım ki... Buraxmaq istəmirdim atamı, onu müharibə adlı vəhşinin əlinə verməyə qorxurdum. Atam isə hey qulağıma pıçıldayırdı: "Canavarım, ağlama, evin kişisi artıq sənsən, bacın və anan sənə əmanətdir, güclü ol, sənə inanıram". Hönkürmək istəyirdim, amma atam pis olmasın deyə dözürdüm. Çiynində ağır döyüş çantası gedən atamın arxasınca baxa bilmədim, uşaq olsam da, başa düşürdüm ki, bu gedişin dönüşü olmaya bilər. Sinfə necə girdiyimi xatırlamıram. Müəllim halımın pis olduğunu görüb nə baş verdiyini soruşdu. Artıq özümü saxlaya bilmədim, qəhərdən boğulurdum, hönkürtü ilə ağladım. Hamı başıma yığışıb, mənə təsəlli verir, "darıxma, qayıdacaq" deyirdi...

Günlər çox ağır keçirdi. İçimiçimi yeyirdi, ağlıma qorxunc fikirlər gəlirdi, amma anam və bacım üçün özümü şən göstərirdim.11 yaşım olmasına baxmayaraq, mən hər şeyi dərk edirdim. Anamın qəmli baxışları, tez-tez ah çəkməsi gözümdən qaçmırdı.

Müharibə isə lap şiddətlənmişdi. Atam ara-sıra bizimlə danışır, hər şeyin əla olduğunu deyirdi. Onun ruh yüksəkliyi bizi daha da sevindirirdi. Ətrafımdakı hər kəs mənə dayaq olur, "hər şey yaxşı olacaq" deyirdi. Məktəbdə müəllimlər başımı sığallayır, tez-tez atamı soruşurdular.

Torpaqlarımız bir-bir alınır, Ali Baş Komandanımız televizorda elan verəndə sevincdən əl çalır, "Ura!" – deyə qışqırırdıq. Amma dərhal da torpaqlar üçün can verən əsgərlərimizi düşünüb kədərlənirdik. Hər gün şəhid xəbərləri, Naxçıvana gələn şəhid karvanı...

İki gün idi ki, atamdan xəbər tuta bilmədiyimizdən çox narahat olmuşduq. Məktəbdə hamının mənə şübhəli baxdığını hiss edirdim, sanki demə, atam yaralanıbmış. Bizə demək istəmirdilər. Evdə anamla hər an zəng gözləyirdik, zəng gəldi...

Atamın səsini eşidəndə sevincdən ağladım, yüngül yaralanmışdı. Müalicə alıb döyüşə qayıtmışdı. Sevincimiz uzun sürmədi. Uşaqlıq dostum Əlinin atası Anar əmi də atamla birgə vuruşurdu. Zəngilanın azad olunma xəbərinin Ali Baş Komandana məruzə edilməsini bir neçə gün əvvəl televizorda görüb qürur duyduq. Həmin gün isə Anar əminin şəhid xəbəri gəldi. Biz onlarla qonşu idik, xəbəri ailəsindən gizlədirdilər. Əlinin üzünə baxa bilmirdim, anasının halı çox pis idi. Onlara yaralı xəbəri vermişdilər, həqiqəti deməyə heç kəs cəsarət etmirdi. Anam gizli-gizli ağlayır, xəbərin doğruluğunu qəbul edə bilmirdi. Ətrafdakılar bu cəsur döyüşçü üçün ağlayırdı. Mən Əlinin başını qatmağa çalışırdım. O da atasının çox güclü olduğunu, tezliklə zəng edəcəyini söyləyirdi. Amma etmədi...

Bütün hərbi şəhərcik onları gözyaşı ilə Bakı şəhərinə yola saldı. Anar əmi Bakıdakı Fəxri xiyabanda dəfn olundu.

Müharibə davam edirdi, şanlı ordumuz Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlını mənfur düşməndən artıq geri almışdı. Məktəbdə şagirdlər "Əsgərə məktub" adı altında ürək sözlərini yazırdılar. Bu məktublar birbaşa cəbhəyə gedirdi. Mən stol arxasında əyləşib bütün hiss etdiklərimi yazdım. Atam haqqında yazmışdım, bəlkə, atam oxudu.

Şuşa uğrunda qızğın döyüşlər gedirdi. Bilirdim ki, atam da orada döyüşür. Şuşanın azad olunma xəbərini eşitdik. Bütün xalqımız sevincdən bayram edirdi. Nəhayət, müharibə başa çatdı. Sevincimizin həddi-hüdudu yox idi. Atam sağ qayıdacaqdı. Ancaq müharibədən sonra atam uzun müddət qayıtmadı. Get-gedə çox darıxırdım, səbirsizliklə yolunu gözləyirdim. Dekabrda atam gəldi, sevincimi ifadə etməyə söz tapa bilmədim. Atamı öpməkdən doymurdum, bəzən mənə elə gəlirdi ki, bu, bir yuxudur. Atama müharibə barədə çoxlu suallar verir, cavabını diqqətlə dinləyirdim. Müharibədən çoxlu əhvalatlar danışırdı. Atam danışdıqca qürurla, sevinclə gözümü ona dikirdim, heç susmasını istəmirdim. Atam mənim qəhrəmanım idi, nəinki mənim; o, xalqın qəhrəmanına çevrilmişdi. Müharibədəki şücaətinə görə bir neçə medala layiq görülmüşdü, heyrətlə bu medallara baxır, gözümü ayıra bilmirdim. Atam nəinki döyüşmüşdü, həm də bir çox yaralı yoldaşlarını ölümdən xilas etmişdi. Hətta bir yaralı döyüşçü varmış ki, artıq hər kəs onun şəhid olacağını düşünə də, atam onu zamanında həkimlərə çatdırıb həyatını xilas etmişdi. Hazırda atamın yaralı ikən həkimlərə çatdırdığı leytenant Əhmədov Elgün əmi sağalıb və atamla möhkəm dostluq edir.

Bəli, atam müharibə qəhrəmanı, veteran polkovnik-leytenant Səid Əhmədovdur!

*Mən atamla fəxr edirəm!*

**Furqan FƏRHADLI**
***Naxçıvan Qarnizonu tam orta məktəbinin VI sinif şagirdi***

## Mərkəzləşdirilmiş dispetçer xidmətinin təqdimat mərasimi keçirilib



"Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin iclas zalında cəmiyyətlə "Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti" Publik Hüquqi Şəxsin birgə hazırladıqları mərkəzləşdirilmiş dispetçer xidmətinin təqdimat mərasimi olub. Tədbirdə publik hüquqi şəxsin direktoru Əli Hüseynəliyev çıxış edərək bildirib ki, muxtar respublika rəhbərinin tapşırığına əsasən ictimai nəqliyyatda əhaliyə göstərilən sərnişindaşıma xidmətinin səviyyəsinin yüksəldilməsi, eləcə də operativ və keyfiyyətli fəaliyyətin təmin edilməsi məqsədilə innovasiyaya əsaslanan elektron dispetçer xidməti yaradılıb.

Qeyd edilib ki, mütərəqqi yeniliklərin və innovativ sistemlərin tətbiq edildiyi xidmətin qurulması üçün 2 kompüter dəsti ayrılıb, şəhərdaxili marşrut xətlərində dayanacaqlararası məsafələr ölçülərək dəqiqləşdirilib, marşrut xəritələri işlənərək yenilənib, marşrutda olan nəqliyyat vasitələrinə "Naxtel" GPS izləmə sistemi quraşdırılıb, sürücülərə bu işin mahiyyəti barədə mütəmadi olaraq maarifləndirici söhbətlər aparılıb.

Əli Hüseynəliyev vurğulayıb ki, mərkəzləşdirilmiş dispetçer xidmətinin işə salınması özü ilə bir sıra üstünlüklər gətirərək həm sərnişinlərin, həm də sürücülərin rahatlığına və təhlükəsizliyinə xidmət edəcək.

Tədbirdə "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Kamil Yusifov cəmiyyətin fəaliyyəti, bir sıra təşkilatlarla əməkdaşlığı barədə məlumat verib. Bildirib ki, 288 taksi xidmətinin şəbəkə təminatı da "Naxtel" şirkəti tərəfindən həyata keçirilir. Səs, SMS və data xidmətlərini əhatə edən mobil rabitə ilə yanaşı, GPS Monitorinq Xidmətləri və Toplu SMS xidmətləri də abunəçilərə və təşkilatlara xidmət göstərməkdədir. Yeni istifadəyə veriləcək dispetçer nəzarəti xidməti cəmiyyətlə "Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti" Publik Hüquqi Şəxsin birgə əməkdaşlığının nəticəsi olaraq ərsəyə gəlib. Yeni xidmət vasitəsilə avtobus xəttində istifadə olunan nəqliyyat vasitələrinə GPS nəzarəti "Naxtel"in GPS monitorinq sistemi vasitəsilə həyata keçiriləcək. GPS monitorinq sistemində publik hüquqi şəxsin istəklərinə uyğun olaraq bir sıra yeni hallar yaradılıb və istifadəyə verilən dispetçer xidmətində tətbiqi nəzərdə tutulub.

Sonra "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin billinq üzrə mütəxəssisi Cavad Paşayev və "Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidməti" Publik Hüquqi Şəxsin əməkdaşı Tahir Məmmədov mərkəzləşdirilmiş dispetçer xidmətinin fəaliyyəti və iş prinsipi barədə ətraflı məlumat veriblər.

**✍ Nail ƏSGƏROV**

## Təcrübədə olan tələbələr üçün seminar



Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin müvafiq şöbələrinin əməkdaşlarının iştirak etdiyi "Startap və maliyyə resurslarının idarə edilməsi" adlı seminara Naxçıvan Dövlət Universitetinin Mühasibat uçotu və audit ixtisasının istehsalat təcrübəsində olan IV kurs tələbələri cəlb olunub.

Tədbirdə çıxış edən Maliyyə Tədris Mərkəzinin direktoru Mehriban İmanova bildirib ki, təlimin təşkil edilməsində məqsəd innovativ ideyaları inkişaf etdirmək üçün təcrübə prosesində tələbələrə dəstək göstərilməsi və onları muxtar respublikanın texnoloji inkişafında önəmli rol oynayan startapların genişləndirilməsinə yönləndirməkdir. Sonra ölkəmizdə öz startap layihələri ilə uğur qazanan gənclər və onların layihələrini əks etdirən videoçarx nümayiş olunub.

Təcrübə rəhbəri Mehparə Məmmədova "Startap nədir və necə başlaya bilərəm?", təcrübəçi tələbə Həsən Abbasov "Startapda maliyyə resurslarının idarə edilməsi" modulları ətrafında çıxış ediblər. Startap layihələrinə professional yanaşmanın əsas göstəricisi kimi biznes-planın quruluşu, məqsədi və tərtib edilməsi qaydaları praktik olaraq izah edilib.

Tədbir diskussiya şəraitində davam etdirilib, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin mətbuat xidməti***

## Birinciliyin qalibləri məlum olub



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Təhsil nazirliklərinin, Hava və Ekstremal İdman Növləri Federasiyasının təşkilatçılığı ilə yeniyetmə və gənclər arasında velosiped idman növü üzrə muxtar respublika birinciliyi keçirilib. "Zərərli vərdişlərə yox deyək, həmişə sağlam olaq!" devizi altında Uzunoba Su Anbarının ətrafında keçirilən birincilikdə, ümumilikdə, 24 idmançı mübarizə aparıb. Şərur rayon idmançısı Röyal Həsənov finiş xəttinə hamıdan tez çatıb. Culfa rayon təmsilçisi Elvin Mikayılzadə ikinci, Kəngərli rayon idmançısı Davud Məmmədli isə üçüncü yerə layiq görülüblər.

Sonda qaliblər təltif olunublar.

**✍ Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi

### *Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsi ilə birlikdə gömrük orqanlarına işə qəbulla bağlı müsabiqə elan edir*

Naxçıvan Muxtar Respublikasının gömrük orqanlarına xidmətə qəbul ilə əlaqədar müsabiqəyə 10 vakant inspektor vəzifəsi (vəzifə kodu: 999000) çıxarılmışdır. Müsabiqədə ali məktəbləri gömrük işinin təşkili, gömrük ekspertizası, hüquqşünas, dövlət və bələdiyyə idarəetməsi, ümumi iqtisadiyyat, iqtisadiyyatın tənzimlənməsi, dünya iqtisadiyyatı, beynəlxalq iqtisadi münasibətlər, biznesin təşkili və idarə edilməsi, menecment, vergi işinin təşkili və idarə edilməsi, mühasibat uçotu və audit, maliyyə və kredit ixtisasları üzrə bitirən şəxslər iştirak edə bilərlər.

Test imtahanında iştirak etmək istəyən şəxslər 1 aprel-2 may 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməli və aşağıdakı sənədlərin skan olunmuş surətlərini "şəxsi kabinet"ə yükləməlidirlər:

*1. Şəxsiyyət vəsiqəsi*

*2. Ali təhsil barədə diplom (Xarici ali təhsil müəssisələrinin məzunları aldıqları ixtisasların Azərbaycan Respublikası ərazisində tanınması və ekvivalentliyi barədə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən verilmiş şəhadətnamə)*

*3. Əmək kitabçası (son iş yeri barədə qeydin olması şərtilə)*

*4. Hərbi bilet*

*5. 3x4 santimetr ölçüdə fotoşəkil (ağ fonda).*

Namizədlər elektron ərizəni təsdiq etmək üçün müəyyən olunmuş məbləği (90 AZN) "şəxsi kabinet" üzərindən bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz mərkəzə təqdim edilməlidir.

İkili vətəndaşlığı olan, yaşı 30-u keçmiş, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli hesab edilmiş, tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə gömrük orqanlarında işləməyə qadir olmayan, dövlət orqanlarında əvvəllər yol verdiyi kobud nöqsanlara və ya qulluqla bir araya sığmayan hərəkətlərə görə bu orqanlardan xaric edilmiş şəxslər, qanunla müəyyən olunmuş müddətli həqiqi hərbi xidmət keçməmiş vətəndaşlar müsabiqəyə buraxılmırlar.

***Əlaqə telefonları:***
***(036) 545-65-71 (Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi)***
***(036) 544-49-72 (Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi)***

## Elan

"Xidmət" Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə çatdırılır ki, Naxçıvan şəhəri, Xətai küçəsi 6-da yerləşən "Xidmət" ASC-nin inzibati binasında 14 may 2022-ci il tarixdə saat $11^{00}$-da səhmdarların ümumi yığıncağı keçiriləcəkdir. Yığıncağın gündəliyində aşağıdakı məsələlər durur:

*1. Səhmdarların ümumi yığıncağının reqlamentinin təsdiqi.*

*2. Cəmiyyətin 2021-ci ildə maliyyə-təsərrüfat fəaliyyətinə dair idarə heyəti sədrinin hesabatı.*

*3. Cəmiyyətin təftiş komissiyasının seçilməsi.*

*4. 2022-ci ildə cəmiyyətin fəaliyyət proqramına baxılması.*

*5. Sair məsələlər.*

***İdarə heyəti***

### *İtmişdir*

Şərur rayon Xanlıqlar kəndində yaşamış Həsənov Hüseyn Kərim oğlunun adına olan $272^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 261